# Gəncədə bir şair yaşar: MİKAYIL YANAR



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Mikayıl Yanar. Bəlkə də oxucular arasında bu müəllifi yaxşı tanıyanlar az olar. Amma onu Gəncədə və ətraf rayonlarda çox yaxşı tanıyırlar. Mikayıl müəllim səksən yaşı ərəfəsindədir. Tovuzun Qovlar qəsəbəsində dünyaya gələn Mikayıl Yanar Gəncədə Pedoqoji İnstitutun Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib, On ildən artıq Xanlarda, Şabranda müəllim işləyib, sonra isə Gəncədə müxtəlif qəzetlərdə jurnalistik fəaliyyəti ilə məşğul olub. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Bədii yaradıcılığa əllinci illərdən başlayıb,**

Bu yaxınlarda hörmətli professor Qəzənfər Paşayev onun dörd kitabını mənə verdi. Mənim bölgələrdə yaşayan şairlərin yaradıcılığına xüsusi maraq göstərdiyimi Qəzənfər müəllim çox gözəl bilir. O, "Bölgələrdə ədəbi həyat" kitabıma maddi dəstək göstərib, o kitabın tərtibçisi də elə Qəzənfər müəllimdir.

Kitabları vərəqləyirəm. "Dünyanın yalan üzü". 1998-ci ildə nəşr edilən bu kitaba mərhum professor Bağır Bağırov hərarətli və səmimi bir ön söz yazıb. "Onun poeziyasında doğma Azərbaycanımızın əsrarəngiz gözəllikləri öz poetik əksini tapmışdır. Qəlbaçan misraları ilə dil-ağızda gəzib-dolaşan şairin həyata baxışı çox nikbindir" - belə yazırdı Bağır müəllim və o kitabdakı şeirlərlə tanışlıqdan sonra mən də onun fikirləri ilə tam razılaşdım. Doğrudan da, bütün şairlərimiz Vətən haqqında şeirlər yazıblar hər şair də Vətənə öz sevgisini izhar edib. Təbii ki, bu şeirlərin böyük bir qismi tərənnüm xarakterlidir və buna görə şairləri qınamaq olmaz. Vətəni - onun gözəlliklərini, keçmişini və bu gününü, gözəl insanlarını vəsf edərkən elə ifadələr, təşbehlər və əlbəttə, ürəkdən gələn sevgilər lazımdır ki, bir VƏTƏN obrazı canlansın. Mikayıl Yanarın "Mən Azərbaycanam" şeirində məhz bir sevgi, Vətənin adıyla bağlı səmimi duyğularla rastlaşırsan:

**Gör nələr yetirir, bax bu torpağım,**
**Cənnət guşəsidir hər bağça-bağım,**
**Kəpəzim, Qoşqarım, uca Şahdağım,**
**Həm yerəm, həm göyəm, həm asimanam,**
**Mən Azərbaycanam, Azərbaycanam!..**

**Üzeyir qüdrətli bir bəstəkaram,**
**Şöhrətdir xalqıma Fikrətim, Qaram.**
**"Rast"ım, "Segah"ımtək qəlbdə yaşaram,**
**Cabbaram, Seyidəm, Bülbüləm, Xanam,**
**Mən Azərbaycanam, Azərbaycanam!..**

Mikayıl Yanarın şeirlərindən hiss olunur ki, o, xalq poeziyasının, aşıq şeirinin vurğunudur, yazdığı bütün şeirlər qoşmadır, gəraylıdır, heca şeirimizin müxtəlif ölçülərində olan nümunələrdir. Çalışır ki, ənənəvi formalarda və ənənəvi mövzularda bir kimsəni təqlid eləməsin, öz sözünü deyə bilsin. "A dağlar" qoşmasının iki bəndinə diqqət yetirək:

**Gəzdim sinənizdə mən oymaq-oymaq,**
**Olarmı göz yumub hüsnündən doymaq,**
**Bir qara daşına gəlib baş qoymaq,**
**Qismətim olaydı mənim a dağlar.**

**Oxşadı o yerlər, oxşadı məni,**
**Hər səhər dolandım neçə çəməni,**
**Küləklər qoynundan qovdu çənini,**
**Dönüm oylağına, dönüm a dağdar!**

Qədim Gəncə və Yeni Gəncə bizim şeirmizdə az vəsf olunmayıb. Mikayıl Yanarın "Gəncənin dastanı" və "Qədim Gəncə yeni Gəncə" şeir kitablarında yaşadığı doğma şəhərinə poeziya dili ilə sevgisini izhar edib. Janrına görə poema-dastan kimi səciyyələndirmək olar "Gəncənin dastanı"nı. "Tarixi qəhrəmanlıq səhifələri", "Azadlıq və müstəqillik mübarizələri", "Hünər dərsliyi", "Gəncə söz meydanıdır", "Telli sazın ustadları", "Qüvvət elmdədir", "Mahnı qanadlarında", "Səhnədən gələn səslər", "Rənglərdə daşlarda yaşayanlar", "Sənət inciləri", "Xeyirxahlıq üstə köklənib Gəncəm", "Təbiətin şah əsərləri", "İdman aləminin cəngavərləri" - on üç bölmədən ibarət olan bu poema-dastanda Gəncənin keçmişi və bu günü, onun Azərbaycana və dünyaya bəxş etdiyi dahi sənətkarlar, tarixi abidələr, Gəncənin küçələri, orada yaşayan insanların özünəməxsus adət-ənənələri, gözəl təbiət mənzərələri bir-bir gözümüzün önündən keçir. Poemanı oxuduqca özünü Gəncədə hiss edirsən. Sonda "Epiloq"da oxuyuruq:




**Yarandığın gündən bu günə kimi,**
**Daim ucalığı arxa sanmısan,**
**O ulu, o uca Kəpəz sənəmi,**
**Yoxsa sən Kəpəzə arxalanmısan!?**

**Gəzsəm hər tərəfi, gəzsəm hər yanı,**
**Bütün şhəhərlərin başısan, Gəncəm,**
**Üzüyə bənzətsəm Azərbaycanı,**
**Sən onun qiymətli qaşısan, Gəncəm!**

**Deyirəm, qoynunda neçə sirr yatır,**
**Hər bir abidənin, hər bir qalanın,**
**Qələmim həmişə sənə ü3z tutur,**
**Nəhəng muzeyisən Azərbaycanın!**

"Qədim Gəncə, yeni Gəncə" kitabında da eyni tendensiya izlənilir. Yenə də əsas obraz Gəncədir. Amma bu kitab üşaqlar üçün yazılıb və yeri gəlmişkən qeyd edim ki, Mikayıl Yanar həm də uşaq şairidir. Uşaq şairi olmaq o deməkdir ki, sən gərək uşaqların dilini biləsən, onları maraqlandıran suallara cavab verə biləsən, uşaqlarla çox sadə dildə danışasan və onların dünyasına bələdliyin ola. Dahi rus tənqidçisi V.Q.Belinskinin bir kəlamı var: "Uşaq şairi olmaq yox, uşaq şairi kimi doğulmaq lazımdır". Mikayıl Yanarın uşaqlar üçün yazdığı şeirlərdə də dediyimiz bu əlamətlər hiss olunur. Onun bu kitabında uşaqlara Azərbaycanın keçmişi, bu günü, qəhrəmanları, şəhərləri haqqında sadə dillə məlumatlar verilir. Təbii ki, şeir dililə. Kitabda ən maraqlı nümunələr "Əmək ritmləri" və "Göy quşları" bölmələrində toplanıb. Mikayıl müəllim "Əmək ritmləri"ndə uşaqlara ayrı-ayrı peşələr və bu peşələrdə çalışan insanlar barədə söz açır. "Betonçu" şeirinə müraciət edək.

**Səhərdən axşamacan**
**Dinclik bilməz, -**
**İşləyər,**
**İşləyər**
**Sonsuz bir həvəslə,**
**Axıdar**
**Damcı-damcı tər!..**
**Hünər yollarında o,**
**İlhamla zəhmət çəkər.**
**Bədəninin qüvvəsini**
**Qollarından**
**Beton-beton**
**Tökər!..**

Mikayıl Yanarın "Üzeyir dünyası" poeması dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyliyə həsr olunub. Əlbəttə, müəllifin məqsədi heç də Üzeyir bəyin tərcümeyi-halını, ömür yolunu şeir vasitəsilə oxucuya çatdırmaqdan ibarət olmayıb. Əsas məqsəd Üzeyir dünyasının - millətsevərliyin, azərbaycançılığın o dahi insanın həyat məramı kimi yaşanılmasını, bir xalqın musiqi dünyasını BÖYÜK DÜNYA ilə qovuşmasını təsvir etmək olub. Müəllif bu poemada Qarabağ haqqında, onun dünyaya nəhəng sənətkarlar bəxş etməsini xüsusi vurğulayır, Qarabağın poetik albomunu gözlərimiz qarşısında canlandırır.

Mikayıl Yanarın şeir və poemaları haqqında qeydlərimi başa çatdırıram, bu qocaman şairə arzu edirəm ki, yazsın-yaratsın. Bir şeirində deyir ki:

**Dedilər çox uyma şeirə, qəzələ,**
**Dedim mənim üçün odur bir lalə.**
**Dedilər bənzətmə onu gözələ,**
**Dedim gözəllikdə mələkdir şeir!**
**Dedilər nə deyər sinəndə ürək,**
**Dedim ki, döyünən ürəkdir şeir!...**

ədalət.2017.20 aprel.s.4